


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 217 (23.859)

*23 noyabr 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Parkı qəbul edib, Portuqaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jaime Van Zellerin, Nigeriya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yakubu Santuraki Suleymanın, Uqanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Muhammad Tezikuba Kisambiranın, Finlandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Kirsti Narinenin etimadnamələrini qəbul edib.



## D.H.Rəhimova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Hidayət oğlu Rəhimova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 noyabr 2021-ci il*

## Naxçıvanda “Ailə təsərrüfatı məhsulları” satış yarmarkası keçirilib






Ailə təsərrüfatları daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatı ilə yanaşı, özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa da mühüm töhfə verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, ailə təsərrüfatlarına geniş fəaliyyət imkanları açılmışdır. Bu sahənin inkişafı istiqamətində görülən ardıcıl tədbirlərin nəticəsidir ki, ailə təsərrüfatlarının sayı getdikcə artır, ailə biznesi genişlənir.

Noyabrın 20-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Ailə təsərrüfatı məhsulları” satış yarmarkası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yarmarkada iştirak etmişdir.

Yarmarkaya Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarından, eləcə də Naxçıvan şəhərindən, ümumilikdə, 453 ailə təsərrüfatı tərəfindən 540 çeşiddə 41 mindən çox qablaşdırılmış məhsul çıxarılmışdır. Naxçıvan qovurması, xaması, qaymağı, pendiri, qatığı, müxtəlif növ mürəbbə və şirniyyatları, alana, sucuq, cəviz, badam, qurut, müxtəlif çeşidli meyvə şirələri, doşabları, sirkələri, şərablar və meyvə araqları, eləcə də turşular, kompotlar, cemlər, meyvə-tərəvəz quruları, milli mətbəximizə aid çörək çeşidləri və digər məhsullar yarmarka iştirakçılarına təqdim edilmişdir.




Naxçıvan torpağı yabanı tərəvəz və dərman bitkiləri ilə zəngindir. Tarixən həmin sərvətlərdən məişətdə və xalq təbabətində geniş istifadə olunmuşdur. Bu gün də kəndlərdə yabanı tərəvəz və dərman bitkilərinin istehsalı sahəsində ixtisaslaşmış ailə təsərrüfatları fəaliyyət göstərir. Yarmarkaya bu sahə ilə məşğul olan ailə təsərrüfatları tərəfindən dərman bitkiləri və onlardan hazırlanan məhsullar da çıxarılmışdı.

Ailə təsərrüfatları məhsullarının tara satışı mağazasının stendində məlumat verilmişdir ki, yerli istehsal olan çölməklər, şirniyyat qəlibləri, meyvə quruları üçün qablar və digər çeşidlər olmaqla, 34 növdə tara nümayiş olunur. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə məxsus stenddə Bioresurslar İnstitutu tərəfindən hazırlanmış müxtəlif çeşiddə meyvə quruları, gülab, çaytikanı yağı, propolis (barəmum), paketlənmiş zəfəran qurusu, alma sirkəsi və bir sıra digər məhsullar yer alırdı.




Ali Məclisin Sədri məhsul çeşidlərinin artırılması və istehsal sahəsinin qurulması barədə tapşırıqlar vermişdir.

Ali Məclisin Sədri yarmarkada özünüməşğulluğa cəlb olunmuş ailə təsərrüfatlarının məhsullarına baxmışdır. Məlumat verilmişdir ki, muxtar respublikada 2017-ci ildən özünüməşğulluq proqramının icrasına başlanılmışdır. Həmin gündən 899 ailənin özünüməşğulluğu təmin edilmişdir ki, onların ailə üzvlərinin sayı 4133 nəfərdir. 860 ailə kənd təsərrüfatı, 22 ailə xidmət, 17 ailə isə istehsal sahələri üzrə proqrama cəlb edilmişdir. 283 ailənin təsərrüfatındakı aktivlər nəzarət müddəti bitdiyindən onların mülkiyyətinə keçirilmişdir. Bu günədək iri və xırdabuynuzlu heyvandarlıq təsərrüfatında 1500-dək artım qeydə alınmışdır. 30 ailə nümunəvi təsərrüfat sahibi kimi həvəsləndirici tədbirlərə cəlb olunaraq öz seçimləri əsasında əlavə aqreqatlarla təmin olunmuşlar. Yarmarkaya da

*Ardı 2-ci səhifədə*





özünüməşğulluğa cəlb olunmuş ailələr tərəfindən müxtəlif çeşiddə məhsullar çıxarılıb.

Zəngin təbiəti, təmiz havası və suyu, ekoloji saf məhsulları qədim diyarda meyvəqurutma sahəsində ailə təsərrüfatlarının formalaşmasına əlverişli şərait yaradır. Yerli meyvələrin qurudulması, onlardan müxtəlif mürəbbə və şirələrin hazırlanması ənənəsi bu gün də yaşadılır. Yarmarkada ailə təsərrüfatları tərəfindən qablaşdırılmış tut, alça, əncir, ərik, gavalı, qızılgül və digər meyvə və tərəvəz quruları, eləcə də meyvə şirələri keyfiyyəti ilə seçilirdi.



Naxçıvanda heyvandarlıq və maldarlığın inkişafı ət və süd məhsulları istehsalının geniş yayılmasına səbəb olmuşdur. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması ailə təsərrüfatlarında istehsal olunan bu məhsulların həcmini və keyfiyyətini artırmışdır. Yarmarkada ailə təsərrüfatlarında istehsal edilən müxtəlif ət və ət məhsulları, qaymaq, xama, qatıq, şor, qurut və digər ənənəvi süd məhsulları alıcı marağına səbəb olurdu.



Dövlət proqramlarının qəbul olunması və uğurla icra edilməsi nəticəsində muxtar respublikada meyvəçiliyin və üzümçülüyün inkişafına geniş imkanlar açmışdır. Bu sahə üzrə ixtisaslaşan ailə təsərrüfatçıları artıq meyvə ilə yanaşı, baldırğan, kişmiş, bal, portağal, tut, alma, armud, göycə, alça, şaftalı araqları, müxtəlif növ şərablar, sirkələr və doşablar da istehsal edir. Yarmarkada alıcılar bu məhsullara daha çox maraq göstərirdi.

Bu gün muxtar respublikada istehsal olunan keyfiyyətli məhsullar ölkəmizdə və dünyada brend məhsul kimi qəbul olunur. Xüsusilə ailə təsərrüfatlarında mövsümə uyğun mətbəx nümunələrimizin hazırlanaraq qablaşdırılması və satışa çıxarılması böyük maraq doğurur. Yarmarkaya müxtəlif həcmli taralarda qablaşdırılmış Naxçıvan qovurması çıxarılmışdır.

Biznes Mərkəzinin stendində duzdan və digər məhsullardan hazırlanmış əl işləri nümayiş etdirilmişdir.

“Naxçıvan məhsulları” publik hüquqi şəxsin stendində məlumat verilmişdir ki, 4 müxtəlif çeşiddə hədiyyəliklər, qablaşdırılmış bal, 7 növdə kompot, 2 növdə cem, bitki quruları, turşu, hədiyyəlik çanta və ramka bal nümayiş etdirilir.

Ailə Təsərrüfatları İctimai Birliyinin sədri Mübariz Şirəliyev demişdir ki, Günnüt yolu üzərində 60 hektar ərazidə şum işləri görülmüş, 55 hektar ərazidə taxıl əkini nəzərdə tutulmuşdur ki, onun da 40 hektarı əkilmiş, 5 hektar ərazidə yaz əkini planlaşdırılmışdır. Onun 1 hektarında xaşa, 4 hektarında bostan bitkiləri əkiləcəkdir. 1,5 hektar ərazidə tütün əkilmişdir ki, 4 tondan artıq quru tütün tədarük olunmuşdur. 15 hektar sahədən 105 ton taxıl, 2 hektar kartof sahəsindən 74 ton kartof, 15 hektar qarğıdalı sahəsindən 180 ton qarğıdalı tədarük olunmuşdur. Müasir suvarma metodlarından istifadə etməklə bol məhsul əldə edirik.



Ali Məclisin Sədri ailə təsərrüfatlarının sahibləri ilə söhbət etmiş, məhsullardan almışdır.

Şərur rayonunun Düdəngə kəndindən olan Faiq Ağayev demişdir ki, dövlət qayğısını daim öz üzərimizdə hiss edirik. Qəbul olunan sərəncamlar, Dövlət proqramları bizi daha həvəslə işləməyə sövq edir. Bu il qarğıdalı sahəsindən 120-130, taxıl sahəsindən 80 sentner, hektardan 40 ton kartof, 40 ton soğan məhsulu götürmüşəm.

Şahbuz rayonunun Badamlı qəsəbəsindən olan ailə təsərrüfatçısı Vüsal Salahov yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir ki, cəviz, çörəkotu, balqabaq dənəsi yağları hazırlayırıq. Növbəti ildə məhsullarımızın çeşidlərini artırmağı, eyni zamanda itburnu və üzüm dənəsinin yağını çıxarmağı nəzərdə tutmuşuq.

Yarmarkada xalq sənətkarlarının, istedadlı qadınların və məhkumların da əl işlərinin sərgi-satışı təşkil olunmuşdur. Qadınların Naxçıvan daşlarından hazırladıqları bəzək əşyaları, qolbaqlar, qədim döyüş geyimi, eləcə də istehsal etdikləri müxtəlif məhsullar diqqəti çəkmişdir.





Sabirkənddən olan Xəlil Fərəcov demişdir ki, 2012-ci ildən saldığım meyvə bağından hasilə gətirdiyim məhsulların satışını həyata keçirirəm. Bu il 2 hektardan artıq əlavə ərik bağı da salmışam. Gələcəkdə həmin bağın məhsullarının da yarmarkalarda satışını həyata keçirməyi düşünürəm.

Babək rayonunun Nehrəm qəsəbəsindən olan Tofiq Abutalıbov demişdir: “Ailə təsərrüfatları həm də insanların məşğulluğunu təmin edir. Muxtar respublikada insanların rahatlığı üçün hər cür şərait yaradılmış, dinamik inkişaf təmin edilmişdir. Bütün bunlar ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Biz də bu qayğının qarşılığında çalışırıq ki, təsərrüfatımızı genişləndirək, məhsul bolluğu yaradaq”.

*Ardı 3-cü səhifədə*



Babək rayonunun Nehrəm qəsəbəsindən olan Cəmşid Həsənov demişdir ki, əvvəllər istehsal etdiyimiz məhsulları necə və harada satacağımızı düşünürdük. Lakin bu gün yaradılan şəraitin nəticəsidir ki, məhsulumuzun ölkə ilə yanaşı, xaricdə də satışını həyata keçirir, çoxlu sifarişlər qəbul edirik.

Babək rayonunun Naxışnərgiz kəndindən olan Qəzənfər Qurbanov demişdir: "Hər il məhsul çeşidlərini artırır, onların satışını təşkil edərək maddi-rifah halımızı yaxşılaşdırırıq. Eyni zamanda insanların rahat yaşayışı üçün bir sıra tədbirlər görülür. Muxtar respublikada ən ucqar kəndlərdə belə abadlıq işləri həyata keçirilir, hər cür infrastruktur yaradılır. Keçən il içməli su təminatımız da yaxşılaşdırılmışdır. Buna görə də kənd sakinləri adından minnətdarlığımı bildirirəm".

Ailə təsərrüfatçıları Anar Əzizov, Kamran Kazımov, Cəfər Muxtarov, Familə Mirzəyeva, Hüsniyyə Bağırova, Çiçək Bayramova və Balabəy Allahverdiyev də göstərilən qayğı nəticəsində ailə təsərrüfatlarını xeyli genişləndirdiklərini bildirmiş, yaradılan şəraitə görə minnətdarlıq etmişlər.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının inkişafının mühüm əhəmiyyətə malik olduğunu və göstərilən qayğı nəticəsində istehsal olunan məhsulların çeşidinin ilbəil artdığını bildirmiş, bundan sonra da müvafiq dövlət qurumları tərəfindən ailə təsərrüfatlarına dəstək göstərilməsi ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə "Şərq qapısı" qəzetinin 100 illiyinə həsr olunmuş tədbir keçirilib



*Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının "Şərq qapısı" qəzetinin 100 illiyinə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, 1921-ci ildə ilk sayı çapdan çıxmış "Şərq qapısı" qəzeti yalnız Naxçıvan Muxtar Respublikasının deyil, bütövlükdə, Azərbaycanın ən uzunömürlü kütləvi informasiya vasitələrindəndir. Mətbuat orqanı ölkəmizin ədəbi-bədii mühitinin, ictimai rəyinin formalaşmasında, milli şüurun və təfəkkürün aşılanmasında müstəsna tarixi xidmətlərilə seçilib. Ə.Amaşov "Şərq qapısı"nın Azərbaycan xalqının milli istiqlal hərəkatına töhfəsindən də söz açıb. O, diqqəti nəşrin 1990-1993-cü illərdəki fəaliyyətinə yönəldərək vurğulayıb ki, həmin zaman kəsiyində qəzet ümummilli lider Heydər Əliyevin muxtar respublikada gördüyü işləri işıqlandırıb, məhrumiyyətlərə baxmayaraq, cəsarət nümayiş etdirib. Bu cəhət onu, eyni zamanda ideoloji mərkəz kimi tanıdıb.

Bildirilib ki, hələ Sovetlər Birliyi dönəmində nəşrin 50 illik yubileyinin keçirilməsi təşəbbüsü ilə çıxış etmiş ulu öndər onun 75 illik yubileyinin yüksək səviyyədə təşkilinə də həssas yanaşıb. Sonrakı illərdə nəşrin 80, 85, 90 illik yubileylərinin yüksək səviyyədə qeyd olunması xoş ənənəyə çevrilib. "Bu günün "Şərq qapısı" müasir texnologiyalarla təchiz edilmiş, özünün internet resursuna, mətbəəsinə, ofisinə malik jurnalistika məktəbidir. Qəzetdə başlıca meyar peşəkarlıqdır. Əlbəttə, peşəkarlıq vətənpərvərliklə çulğalaşıb ki, bu da tarixi ənənələrdən qaynaqlanmaqdadır", – deyən Mətbuat Şurasının sədri "Şərq qapısı"nın 100 yaşının təntənəli şəkildə qeyd edilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı müvafiq Sərəncamı mətbuatın inkişafına böyük qayğı kimi dəyərləndirib. Qeyd olunub ki, Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə keçirilən yubiley tədbiri də ölkənin aparıcı media vasitələrinin rəhbərlərinin iştirakı ilə təşkil olunub. Mətbuat Şurasının sədri "Şərq qapısı" qəzetinin şuranın xüsusi diplomu ilə təltif edildiyini bildirərək diplomu Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərova təqdim edib.

Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov çıxışında bildirib ki, milli mətbuatımızın inkişafına böyük töhfələr verib, muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında müstəsna rol oynayan qəzet Naxçıvanın 100 illik tarixinin yazılı salnaməsidir. 1921-ci ilin noyabrında nəşrə başlamış "Şərq qapısı" böyük inkişaf yolu keçib, ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə onun böyük formatda nəşri təmin edilib, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görüb. 100 illik tarixi ərzində burada böyük ədiblər, tənqidçilər, jurnalistlər nəsli yetişib. Qəzetin ötən əsrin 70-ci illərində 50 illik yubileyi qeyd olunub, "Şərəf nişanı"na layiq görülüb.

"1990-1993-cü illərdə ulu öndərimizin Azərbaycanın xilası naminə Naxçıvanda həyata keçirdiyi tədbirlər, qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar, eləcə də dahi rəhbərin müsahibələri məhz "Şərq qapısı" qəzetində çap olunaraq geniş ictimaiyyətə çatdırılıb. Bu dövrdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanıb, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin edib", – deyən B.Əsgərov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamının əhəmiyyətindən danışıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında "Şərq qapısı" qəzetini məktəb adlandırıb. O vurğulayıb ki, bu məktəb özündə yalnız jurnalistikamızın ənənələrini birləşdirmir, yüzillik tarixi nəşri ədəbiyyat, publisistika, elm məktəbi kimi də təqdim etmək üçün geniş məzmunlu əsaslar yaradır. Akademik vurğulayıb ki, "Şərq qapısı"nın inkişafı yalnız bir qəzetin inkişafı deyil, bütövlükdə, Azərbaycan milli mətbuatının inkişaf tarixidir. "Şərq qapısı" özü bir tarixdir, tarixin parçasıdır. O, Naxçıvanın ensiklopediyasını yaratmış mətbuat orqanıdır, salnamədir. Onun səhifələrində jurnalistikanın bütün janrları təmsil olunub. Publisistik dəstxət özünü ən mükəmməl surətdə göstərib. Qəzet həm də bir elm mərkəzidir. Azərbaycan, Naxçıvan elmi ilə bağlı fundamental məqalələr, elmi yeniliklər məhz onun səhifələrindən oxuculara çatıb. Bu mənada, qəzetin Azərbaycan elminin inkişafında da müstəsna rolu var. Akademik İsa Həbibbəyli yubilyar mətbuat orqanının Azərbaycanın müstəqillik əldə edilməsindəki rolundan söz açıb, qəzetin ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrünü öyrənmək baxımından əvəzsiz mənbə olduğunu vurğulayıb. Qəzetin müstəqillik illərindəki fəaliyyətindən söz açan akademik İsa Həbibbəyli onun hazırda ayrıca mətbəəyə malik olmasını, uğurla fəaliyyət göstərərək ənənələri yaşatmasını Naxçıvanda söz sənətinə verilən dəyərin bariz nümunəsi kimi xarakterizə edib.

Çıxış edənlərdən Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, şuranın İdarə Heyətinin üzvləri – "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Ədalət" qəzetinin təsisçisi, Milli Məclisin deputatı Aqil Abbas, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, həmçinin "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, "Yeni Azərbaycan" qəzetinin baş redaktor müavini Nəzirə Nurullayeva, "525-ci qəzet"in redaktoru Seyfəddin Hüseynli, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev, Yeni Azərbaycan Partiyasının Binəqədi Rayon Təşkilatının sədri Vüsal İsmayılov və başqaları "Şərq qapısı" qəzetinin müxtəlif dövrlərdəki fəaliyyətindən bəhs edib, onun Azərbaycanda milli mənlik şüurunun formalaşmasındakı roluna toxunaraq nəşrin vətənpərvərlik duyğularının yayılmasına, həyatın müxtəlif istiqamətlərinin təşəkkül tapmasına yönələn fəaliyyətini yüksək qiymətləndirib, təbriklərini çatdırıblar.

## Naxçıvan Muxtar Respublikasının turizm potensialı Qətərdə keçirilən sərgidə təbliğ olunub

*16-18 noyabr 2021-ci il tarixlərdə Qətərin paytaxtı Doha şəhərində "Qatar Travel Mart" sərgisi keçirilmişdir.*

İlk dəfə keçirilən "Qatar Travel Mart" sərgisi turizm üzrə ixtisaslaşmış beynəlxalq, regional və milli təşkilatları, hava yolları şirkətləri, turoperatorlar, turizm agentlikləri, hotelçilər və onlayn səyahət şirkətlərini bir araya toplayaraq turizm sənayesində rəqabətliliyi artırmaq və qarşılıqlı əməkdaşlığı təmin etmək məqsədilə təşkil edilmişdir.





Dünyanın 31-ə yaxın ölkəsinin və 150 şirkətin iştirak etdiyi sərgidə Azərbaycan Respublikasından Azərbaycan Turizm Bürosunun, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin, eləcə də hotel və turizm agentliklərinin nümayəndələri iştirak etmişdir.

Sərgidə Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Azərbaycana həsr olunan panel sessiya keçirilib. Sessiyada çıxış edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid "Pandemiya Azərbaycan turizminə necə təsir etdi? Postpandemiya dövründə turizm sənayesinin bərpası" mövzusunda çıxış etmişdir. Azərbaycanın geniş turizm potensialı haqqında məlumat verən direktor, həmçinin Naxçıvan Muxtar Respublikasının turizm imkanları haqqında da iştirakçıları məlumatlandırmışdır.

Sərgidə "Naxçıvan Muxtar Respublikası" stendi təşkil olunaraq muxtar respublikanın turizm potensialı təbliğ olunmuşdur. Turizm Departamentinin direktor müavini Qafar Cəlilsoy tərəfindən sərgi iştirakçılarına Naxçıvan Muxtar Respublikasının turizm potensialı barədə geniş məlumat verilmiş, "Naxçıvan Muxtar Respublikası" stendi turistlərin marağını cəlb etmişdir.

Stenddə muxtar respublikanın tarix-mədəniyyət abidələrinin fotoşəkilləri nümayiş etdirilmiş, diyarımızın turizm potensialı ilə bağlı videoçarxlar sərgi iştirakçılarının böyük marağına səbəb olmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən hazırlanmış bukletlər, eləcə də muxtar respublikada fəaliyyət göstərən hotellər haqqında çap məhsulları, "Naxçıvan mətbəxi" kitabı, həmçinin yerli istehsal məhsullarımızdan "Badamlı","Sirab" mineral suları, Naxçıvan duzu beynəlxalq sərgidə nümayiş etdirilmişdir.

Duzdağ Fizioterapiya Mərkəzi sərgi iştirakçılarının daha çox diqqətini cəlb etmişdir. Sərgidə iştirak edən müalicə şirkətləri ilə müxtəlif görüşlər keçirilmiş və müalicə mərkəzi haqqında onlara ətraflı məlumat verilmişdir.

## Təkmilləşdirmə kursunu uğurla bitirən məzunlar yuxarı vəzifələrə təyin ediliblər



***Əlahiddə Ümumqoşun Orduda növbəti dəfə təşkil edilmiş zabit heyətinin təkmilləşdirmə kursunu uğurla bitirən məzunlar yuxarı vəzifələrə təyin olunublar. Bu münasibətlə təntənəli mərasim keçirilib.***

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən bildirilib ki, mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Polkovnik Mübariz Rzayev kurs zamanı keçirilmiş məşğələlərdə əsas diqqətin 44 günlük Vətən müharibəsində qazanılan təcrübənin öyrənilməsinə yönəldildiyini, silahlanmaya yeni daxil edilmiş ən müasir silah və hərbi texnika nümunələrinin real döyüş şəraitində tətbiq olunduğunu qeyd edib.

Məzunlar adından çıxış edən mayor Amil Tağıyev kursda qazandıqları yeni taktiki bilikləri, eləcə də idarəçilik və təşkilatçılıq bacarıqlarını xidmət yerlərində uğurla tətbiq edəcəklərinə söz verib.

Məzunları təbrik edən Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində formalaşmış peşəkar Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin Aprel və 2018-ci ilin Günnüt zəfərlərini qazandı, 2020-ci ildə 44 günlük Vətən müharibəsini şanlı Qələbə ilə başa vurdu. Vətən müharibəsi bizim gücümüzü, milli iradəmizi və birliyimizi bütün dünyaya nümayiş etdirdi, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi ruhla, peşəkarlıq və qəhrəmanlıqla şərəfli missiyanı yerinə yetirdi, doğma torpaqlarımız işğaldan azad edildi.

General-polkovnik Kərəm Mustafayev qeyd edib ki, ölkəmizin dinamik inkişafı nəticə etibarilə Əlahiddə Ümumqoşun Ordunun döyüş arsenalının ən müasir silah və texnika təminatına, bütün parametrlər üzrə müasir standartlar səviyyəsinə yüksəlməsinə şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində hərbi infrastrukturun müasirləşdirilməsi, şəxsi heyətin nümunəvi xidməti və döyüş qabiliyyətinin artırılması üçün mühüm işlər görülür. Peşəkar hərbçilərin yetişdirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Orduda təşkil edilən kurslar ordu quruculuğu istiqamətində görülən işlərin məntiqi davamıdır.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi xatirə lövhəsinə buraxılış emblemini vurub və məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmrlər mərasim iştirakçılarına çatdırılıb.

Əmrlər oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda xatirə şəkli çəkdirilib.

**Xəbərlər şöbəsi**

*Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu və "Nəqşicahan" Holdinq Şirkətlər Qrupunun dəstəyi, "YUGEN" Yaradıcılıq Agentliyinin təşkilatçılığı ilə 17-21 noyabr tarixlərində yerli blogerlər muxtar respublikamıza səfər edib. Qonaqların tur proqramı çərçivəsində noyabrın 20-də "Ailə təsərrüfatı məhsulları" satış yarmarkasında iştirak etdiyinin şahidi olduq.*



# Blogerlər: "Naxçıvanda gördüklərimiz xatirəmizdə əbədi qalacaqdır"

60 ailə təsərrüfatçısı tərəfindən 15 növdə 5877 qablaşdırılmış məhsulun çıxarıldığı Babək rayonuna məxsus pavilyonun qarşısında onlardan biri – ***bloger, peşəkar fotoqraf Fərqanə Quluzadə*** ilə söhbət zamanı dedi ki, Azərbaycanın bir çox rayonlarında olsam da, Naxçıvana ilk dəfədir, səfər edirəm. Bu vaxta qədər Naxçıvan haqqında çox oxumuşam, çox eşitmişəm, amma onu yaxından görmək bu günə nəsib imiş. Başdan-başa təbiət muzeyi olan bu torpağın insanları da gülərüz və mehribandır. Burada olduğumuz 5 gün müddətində bir-birindən maraqlı və yaddaqalan anların şahidi olduq. Ekskursiyalarımız çərçivəsində rəngarəng fotoşəkillər çəkərək öz şəxsi media hesablarımızda izləyicilərimizlə bölüşdük. Həqiqətən, Naxçıvan çoxlarının sevgi və rəğbətini qazanıb. Çox sevindirici haldır ki, bu diyar uzun illər blokada şəraitində yaşamasına baxmayaraq, inkişaf edərək çiçəklənən dövrünü yaşayır. Bu gün də səfərimiz çərçivəsində yolumuzu Naxçıvanqalada təşkil olunan "Ailə təsərrüfatları məhsullarının satış-yarmarkası"ndan saldıq. Sizləri inandırım ki, buranın nemətləri tamamilə başqa dad-tamdadır. Qiymətlər də hər kəsin büdcəsinə uyğun olacaq şəkildə, sərfəlidir. Naxçıvanda şahid olduğum, gördüyüm hər bir şey xatirəmdə həmişəlik qalacaqdır. İnanıram ki, bundan sonra da Naxçıvana sevə-sevə, böyük həvəslə səfər etmək şansını ötürməyəcəyəm.



***Bloger Elçin Əmirov***la Şərur rayonuna məxsus pavilyonun qarşısında alış-veriş məqamında həmsöhbət olduq. "Çoxəsrlik tarixə malik olan Naxçıvan yaradıcı insanların, o cümlədən turistlərin marağında olan ideal məkandır", – deyən müsahibimiz bildirdi ki, Naxçıvan, həqiqətən, zəngin coğrafi mühiti, füsunkar təbiəti ilə buraya üz tutan hər kəsi özünə heyran qoyur. İlk dəfədir, səfər etməyimə baxmayaraq, heç bir yadlıq və özgəlik hiss etmirəm. Ekskursiya çərçivəsində Naxçıvanın bir çox görməli yerlərinə getdik. Qədim diyarın çoxəsrlik tarixini özündə yaşadan Möminə xatın türbəsi, Xan sarayı, Əlincəqala, zəngin təbiətin ən gözəl nümunəsi olan Batabat yaylağı, Ağbulaq İstirahət Mərkəzi insanı özünə valeh edir. Hazırda iştirak etdiyimiz yarmarkanın təşkil olunduğu bu ünvanın – Naxçıvanqalanın da çox qədim tarixə malik olması haqqında xeyli məlumat əldə etdim. Görünən odur ki, Naxçıvanda aparılan yenidənqurma və abadlıq işləri, sözün əsl mənasında, şəhərlə yanaşı, onun tarixi abidələrinin də simasını dəyişib. Ümidvaram ki, növbəti səfərimdə bu diyara yaz mövsümündə gələ biləcəyəm.

Kəngərli rayonunun pavilyonu önündə qarşılaşdığımız ***bloger, fotoqraf Çinarə Ələkbərova*** dedi: Hər zaman arzu etmişəm ki, Naxçıvanı və naxçıvanlıları yaxından tanımaq fürsətim olsun. Çox şadam ki, hazırda iştirakçısı olduğum tur bu gözəl imkanı mənə verdi. Bu qədim məskənin zəngin tarixini özündə ehtiva edən bir-birindən maraqlı eksponatlar və abidələr özləri şahid olduqları tarixdən söhbət açır bizlərə. Hətta olduğum yerlərdən fotoları sosial şəbəkədə paylaşdıqda insanlar böyük bir maraqla qarşılayır Naxçıvanın hazırkı mənzərəsini. Bu naxçıvanlılarla yanaşı, bizlərin də sevincinə səbəb olur. Çox şadıq, sevincliyik ki, Naxçıvan qısa zaman kəsiyində bu qədər inkişaf yolu keçərək qədimlik və müasirliyin çiyin-çiyinə addımladığı bir ünvana çevrilib. Bu gün isə "Ailə təsərrüfatı məhsullarının satış yarmarkası"nda iştirak etməyimiz, düşünürəm ki, mənim kimi bir çox yoldaşlarımın da marağına səbəb oldu. Naxçıvanda olduğumuz bir-neçə gündə qonaqpərvərlik və səmimiyyət gördük. Buradan geri qayıtdıqdan sonra da çalışdığım qədər ana yurdum Azərbaycanın Naxçıvan guşəsini təbliğ edəcəyəm ki, bu yerlərin füsunkarlığından, gözoxşayan gözəlliklərindən hər kəs doya-doya faydalansın.



✍ **Məcid RƏŞADƏTOĞLU**

# Muxtar respublika birinciliyinə yekun vurulub



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində uşaq və yeniyetmələr arasında keçirilən kikboksinq üzrə muxtar respublika çempionatına yekun vurulub.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkil etdiyi birincilikdə 6 komandanın 120 idmançısı 3 yaş kateqoriyası üzrə 22 çəki dərəcəsində rinqə çıxıb. Birinciliyi keçirməkdə məqsəd kikboksinq idman növünün inkişafı, bu növün kütləviliyinin təmini və klubların işinin təkmilləşdirilməsindən ibarət olub.

Olimpiya sistemi üzrə keçirilən yarışda 7-8 yaş qrupu üzrə Asim Kərimli (20 kiloqram, "Turan" döyüş klubu), Məhəmməd Qasımov (22 kiloqram, "Turan" döyüş klubu), Uğur Məmmədli (24 kiloqram, "Naxçıvan-1"), Sabir Novruzov (26 kiloqram, "Turan" döyüş klubu), Mirqafar Seyidli (28 kiloqram, "Turan" döyüş klubu), İlkin Nağılı (30 kiloqram, "Naxçıvan-2") və Rəsul Əsgərov (32 kiloqram, "Turan" döyüş klubu) qalib adını qazanıblar.

9-10 yaş qrupunda Nağı Süleymanlı (24 kiloqram, "Kəngərli"), Yusif Məmmədov (26 kiloqram, "Şərur"), Elnar Əkbərli (28 kiloqram, "Turan" döyüş klubu), Uğur Məmmədli (30 kiloqram, "Şərur"), Yaqub Hacıyev (32 kiloqram, "Turan" döyüş klubu), Ayhan Xəlilov (36 kiloqram, "Naxçıvan-2"), Əbülfəz Cəfərov (39 kiloqram, "Turan" döyüş klubu) və Mahmud Mahmudlu (39+ kiloqram, "Turan" döyüş klubu) öz çəki dərəcələrində birinciliyin qalibi olublar.

11-12 yaş qrupunda isə Nurəddin Əliyev (30 kiloqram, "Turan" döyüş klubu), Əli Nəsrullayev (32 kiloqram, "Kəngərli"), Elşad Cəlilov (35 kiloqram, "Odlar yurdu"), Səid Abbaslı (38 kiloqram, "Turan" döyüş klubu), Oğuz Məmmədli (42 kiloqram, "Turan" döyüş klubu), Uğur Əsgərov (47 kiloqram, "Naxçıvan-1") və İsmayıl Hüseynzadə (52 kiloqram, "Turan" döyüş klubu) muxtar respublika çempionu adına layiq görülüblər.

Komanda hesabında isə ilk üç pillədə "Turan" döyüş klubu, "Şərur" və "Kəngərli" komandaları qərarlaşıblar.

Sonda qaliblər təltif olunublar.

# Region Liqasının oyunlarına start verilib

*Azərbaycan Region Liqasının Naxçıvan zonası üzrə oyunlarına start verilib.*



İlk turda "Araz-Naxçıvan" Ordubad səfərində yerli "Dübəndi" komandasının qonağı olub. Yenidən qurulan Ordubad şəhər stadionunda keçirilən ilk rəsmi görüşdə Naxçıvan təmsilçisi meydanı 3:1 hesablı qələbə ilə tərk edib. Həmin gün Uzunoba Təlim-Məşq İdman Kompleksində azarkeşlər daha bir maraqlı oyuna şahidlik edib. "Babək" komandası çətin keçən görüşdə "Əlincə" (Culfa) komandasını 4:3 hesabı ilə məğlub etməyi bacarıb.

Turun digər iki görüşündə azarkeşlər bol qollu oyunlar izləyib. Sədərək rayonunda keçirilən oyunda "Arpaçay" (Şərur) komandası meydan sahiblərini məğlub etməkdə çətinlik çəkməyib – 0:7. Kəngərlinin eyniadlı komandası isə səfərdə Şahbuzun "Batabat" komandası üzərində böyük hesablı qələbəyə sevinib – 2:12.

Qeyd edək ki, Naxçıvan zonasının qalibi olacaq komanda Region Liqasının reqlamentinə əsasən ölkə üzrə yarımfinal mərhələsinə birbaşa vəsiqə əldə edəcək.

✍ **Ceyhun MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikası üzrə 22 noyabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1811 | 1556 | 255 |
| 2. | Babək rayonu | 5506 | 2694 | 2812 |
| 3. | Ordubad rayonu | 351 | 62 | 289 |
| 4. | Culfa rayonu | 2013 | 1472 | 541 |
| 5. | Kəngərli rayonu | 3546 | 1817 | 1729 |
| 6. | Şahbuz rayonu | 258 | 132 | 126 |
| 7. | Sədərək rayonu | 1479 | 218 | 1261 |
| 8. | Naxçıvan şəhəri | 273 | 187 | 86 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **15237** | **8138** | **7099** |

# Növbəti iməcilikdə 12 min 297 meşə, meyvə ağacı, gül və bəzək, üzüm kolları əkilib



***Noyabr ayının 20-də muxtar respublikada keçirilmiş iməciliklərdə 12 min 297 meşə, meyvə ağacı, gül və bəzək, üzüm kolları əkilib.***

Naxçıvan şəhərində Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarındakı 1,7 hektarlıq yeni bağda 1500 üzüm tingi, 350 meyvə, 100 həmişəyaşıl ağac, dairəvi avtomobil yolunun kənarlarındakı 1,1 hektarlıq ərazidə bərpa məqsədilə 100 meyvə, 220 meşə, digər ərazilərdə isə, ümumilikdə, 40 meyvə, 146 meşə, 81 həmişəyaşıl ağac və 300 üzüm tingi əkilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb. Şərur rayonunun Xanlıqlar kəndindən keçən avtomobil yolunun kənarlarındakı yaşıllıq zolağına 400 meyvə və 400 meşə ağacı, Çərçiboğan kəndindəki yeni tikilən sosial obyektlərin ətrafındakı 0,2 hektarlıq ərazidə isə 150 meyvə ağacı əkilib.

Həmin gün Babək rayonunun Yarımca kəndinə gedən yolun kənarlarındakı 1 hektarlıq yeni salınmış bağda 920 meyvə ağacı əkilib. Ordubad rayon ərazisindəki 0,3 hektarlıq yeni salınan bağda 200 meyvə magistral yolun kənarlarındakı 4 hektarlıq ərazidə isə bərpa məqsədilə, ümumilikdə, 1020 meyvə ağacı əkilib, suvarma işləri aparılıb. Culfa rayonunda Darıdağ Arsenli Su Müalicəxanasına gedən yolun kənarlarında 1,2 hektarlıq ərazidə 600 meşə ağacı, digər ərazilərdə isə bərpa məqsədilə, ümumilikdə, 3,5 hektarlıq ərazidə 700 meyvə ağacı əkilib.

Kəngərli rayonunun Çalxanqala kəndinə gedən yolun kənarlarındakı 5,5 hektarlıq ərazidə bərpa məqsədilə, ümumilikdə, 1020 meyvə və 650 meşə ağacı, Şahbuz rayonunun Kiçikoba kəndindəki 1 hektarlıq yeni salınmış bağda 1300 üzüm tingi, Sədərək rayonunun ərazisindəki 4 hektarlıq ərazidə bərpa məqsədilə, ümumilikdə, 2100 meyvə ağacı əkilib.

Qeyd edək ki, noyabrın 20-də keçirilən iməciliklərdə yaşıllıqlara aqrotexniki qulluğun göstərilməsi də diqqətdə saxlanılıb.

**Xəbərlər şöbəsi**

# Test imtahanları keçirilir



Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən muxtar respublikanın dövlət ümumtəhsil müəssisələrində vakant vəzifələrə – psixoloq, laborant, kitabxana müdiri, kitabxanaçı, tərbiyəçi və uşaq birliyi təşkilatının rəhbəri vəzifələrinə işə qəbul üçün elan edilmiş müsabiqənin test imtahanlarına start verilib.

Müsabiqəyə müraciət etmiş 227 namizəd 89 vakant vəzifənin tutulması üçün biliklərini yoxlayacaq. Vakansiyalar üzrə ən çox müraciət edən namizədlər kitabxana müdiri (125), uşaq birliyi təşkilatının rəhbəri (31) və psixoloq (29) vəzifələri üzrə olub. Şərur (67), Babək (56) və Culfa (36) rayonları müraciət edənlərin sıxlığına görə öndə dayanır.

Müsabiqədə hər bir namizədə, ümumilikdə, 60 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə fənn proqramlarına aid 40, tədris metodikası və təlim strategiyalarına aid 20 test tapşırığı təqdim edilir. Qanunvericiliyə əsasən keçid balını yığmaqla ən yüksək nəticə göstərmiş şəxs müvafiq vəzifəyə təyin olunacaq.

Onu da qeyd edək ki, "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumtəhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 14 aprel 2018-ci il tarixli qərarına əsasən tərbiyəçi, psixoloq, uşaq birliyi təşkilatının rəhbəri, laborant, kitabxana müdiri, kitabxanaçı vəzifələrinə işə qəbul üçün test tapşırıqlarının 40 faizini (24 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir.

Test imtahanları noyabrın 30-na qədər davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhəri, Y.Məmmədəliyev küçəsi 2-də yaşamış Məmmədov Nizami Tahir oğlunun adına olan 1935 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 978